# Azərbaycandan Ermənistanı lərzəyə salacaq növbəti hərbi gediş...

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

## Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

**Hərb sahəsində Azərbaycan işğalçı Ermənistanı kifayət qədər narahat edəcək daha bir addım atmağa hazırlaşır. Söhbət hərbi aviasiya sahəsində Azərbaycanın Ermənistan üzərində əzici hərbi üstünlüyünü daha da artırmaq istiqamətində növbəti addımlarından gedir.**



Belə görünür ki, Azərbaycan həm də Ermənistanın Su-30 qırıcı təyyarələrini alması ilə bağlı sevincini də gözündə qoyacaq.

Xatırladaq ki, Ermənistan Rusiyadan 4 ədəd belə təyyarə almalıdır. Amma indiyə qədər onlardan yalnız bir ədədi Ermənistana təhvil verilib. Digər üçünün çatdırılması isə sual altındadır. Buna rəğmən, Ermənistanda iddia olunurdu ki, sözügedən təyyarənin alınması ilə İrəvan Bakı ilə hərb müstəvisində yaranan fərqi azalda biləcək. Amma Azərbaycan düşmənin bu yöndə sevincini yenə "qursağında" qoyacaq. Belə ki, ölkəmiz Rusiyadan Su-30-larla müqayisədə daha üstün keyfiyyət göstəricilərinə malik təyyarə almağa hazırlaşır. Artıq məlum olduğu kimi, Azərbaycanla Rusiya arasında hərbi-texniki əməkdaşlıq çərçivəsində Azərbaycan Hərbi Hava Qüvvələrinin mütəxəssislərindən ibarət heyət Rusiyanın hərbi-sənaye kompleksinə daxil olan müəssisələrdə olub. Azərbaycan nümayəndə heyətinin üzvləri Rusiyanın Su-35 və MiQ-35 döyüş təyyarələrini istehsal edən hərbi zavodlarına baş çəkiblər. Rusiyanın qlobal silah bazarının liderlərindən biri olan "Rosoboroneksport" şirkətinin nümayəndələri və hərbi zavodların rəhbərliyi ilə keçirilən görüşlərdə ölkəmizin Rusiya istehsalı olan ən müasir döyüş təyyarələrinin alınmasında maraqlı olduğu bildirilib. Nümayəndə heyətimizə təyyarələrin taktiki-texniki xüsusiyyətləri, döyüş qabiliyyəti, silahlanması, ümumilikdə aviasiya vasitələrinin istehsalı, istismarı və onlara texniki xidmət göstərilməsi barədə brifinqlər təqdim olunub. Rusiya tərəfi, öz növbəsində, Azərbaycana Hərbi Hava Qüvvələrimizin ehtiyaclarını ödəyəcək sayda döyüş təyyarələrinin təqdim edilməsinə hazır olduqlarını bildirib. Hərbi pilotlarımız Rusiyanın hərbi aviabazalarında MiQ-35 təyyarəsində praktiki uçuşlar da yerinə yetiriblər. Bundan əlavə, Azərbaycan nümayəndə heyətinə təyyarələrin taktiki-texniki xüsusiyyətləri, döyüş qabiliyyəti, silahlanması, ümumilikdə aviasiya vasitələrinin istehsalı, istismarı və onlara texniki xidmət göstərilməsi barədə məlumat verilib. Xatırladaq ki, hazırda Azərbaycan Hərbi Hava Qüvvələrinin silahlanmasında Rusiyanın MiQ-25 və MiQ-29, həmçinin Su-25 və Su-24 təyyarələri var. Amma belə görünür ki, onların sırasına yaxın tezlikdə Su-35 və MiQ-35 döyüş təyyarələri də əlavə olunacaq. Rusiyanın Federal Hərbi-Texniki Əməkdaşlıq Xidməti də bu fonda yenidən bəyan edib ki, Rusiya Azərbaycanla hərbi-texniki əməkdaşlığın geniş spektrli istiqamətləri, o cümlədən aviasiya təchizatı üzrə danışıqlar aparmağa hazırdır: "Azərbaycan hərbi-texniki əməkdaşlıq sahəsində Rusiya Federasiyasının çoxdankı tərəfdaşıdır. Bu əməkdaşlıq ölkələrimiz arasında davamlı və sistemli şəkildə inkişaf edir. Bu baxımdan həmkarlarımızla əməkdaşlığın geniş spektrli istiqamətlərini, o cümlədən aviasiya mövzusunu müzakirə etməyə hazırıq".

Qeyd edək ki, Su-35 və MiQ-35 döyüş təyyarələri göstəricilərinə görə fərqlənən aviasiya vasitələri sırasında yer alır. Konkret olaraq Su-35 təyyarəsi özündə nisbətən yüksək texniki göstəriciləri və uyğun qiyməti birləşdirir. Yeni aviasiya platforması yaxşı uçuş və döyüş xüsusiyyətləri göstərir. Müasir avionika ilə təchiz olunan bütün bu xüsusiyyətlər Su-35, onun əsas versiyalarından olan Su-35S qırıcısını hər hansı xarici təyyarə üçün son dərəcə təhlükəli bir düşmən halına gətirir. Su-35S təyyarəsi rus ordusundakı ən ciddi və effektiv çoxməqsədli qırıcı adını qoruyur. Onun çox yüksək göstəricilərlə bərabər, olduqca məqbul qiymətə malik olduğu bildirilir. Qırıcı yüksək uçuş göstəricisi ilə yanaşı kifayət qədər ciddi döyüş yükünü də daşıyır. Rusiyanın istehsal etdiyi təyyarələr içərisində ən güclüsü indiyə qədər məhz Su-35 hesab edilir. Su-27-nin əsasında yığılan bu təyyarə "4++" nəslinə aiddir. Bir neçə keyfiyyətinin çatışmaması onu 5-ci nəsil təyyarələr sinfinə aid etməyə imkan vermir. 2008-ci ildən hazırlanan bu təyyarədən yalnız Rusiya ordusunda istifadə edilir. Amma görünür, tezliklə Azərbaycan da həmin təyyarədən istifadə edənlər sırasında yer alacaq.

Su-35 bir çox keyfiyyətləri ilə digər ölkələrin təyyarələrini üstələməyi bacarır. Bu təyyarənin ən zəif tərəfi isə onu radarlara yaxalanmaqdan xilas edən stels texnologiyasına malik olmamasıdır. Al-41F1C mühərriki ilə təchiz edilən təyyarə forsaj vermədən belə səsdən yüksək sürət yığa bilir. Bu mühərriklər həmçinin 5-ci nəsil təyyarələrin də tələbinə cavab verir. Bu təyyarələr 6000 yay saatı və ya 30 il ərzində istifadə edilə bilər. Su-35-lər üzərində həmçinin H035 İrbis radiolokasiya sistemləri quraşdırılıb. Bunun vasitəsilə Su-35-lər 400 kilometrdəki hədəfi müəyyən edə bilirlər. Su-35-in uzunluğu 21,9, hündürlüyü 5,9 metrdir. Təyyarənin boş çəkisi 19000 kiloqram, normal uçuş çəkisi 25300 kiloqram, maksimal uçuş çəkisi 34500 kiloqramdır. Təyyarənin yerdə sürəti 1400 km/saat, havada sürəti 2500 km/saatdır. Uçuş məsafəsi yerdə1580 kilometr, havada isə asma yanacaq çəni olmadan 3600 kilometrdir. Maksimum 20000 metr hündürlükdə uça bilir. Təyyarə 150 mərmisi olan 30 millimetrlik aviasiya silahı QŞ-30-1-lə təchiz edilib. Təchizatında, həmçinin, orta məsafəli "hava-hava" tipli raketlər olan 6 ədəd R-27ER, R-27T, 10 ədəd PBB-AE raketləri, kiçik məsafəli 6 ədəd P-73 raketlərindən də istifadə olunub. Onun üzərində gəmi əleyhinə 6 ədəd X-31 və ya 2 ədəd X-59M raketləri də var. Bundan başqa, Su-35-in silahlanmasına yüksək texnologiyalı raket olan X-29T və KAB-500-də daxildir. Onların sayı bu təyyarədə 6 ədəddir. Bu təyyarələr alındığı təqdirdə ölkəmizə yeni hərbi üstünlüklər qazandıracaq.

MiQ-35-lər də bu gün fərqlənənlər sırasında yer alır. MiQ-29 yüngül qırıcısının ən son modifikasiyası olan bu təyyarə zahirən MiQ-29K/KUB və MiQ-29M/M2 təyyarələrinə bənzəsə də, quyruqda olan və qatlanan qanadları yoxdur. Təyyarə "Klimov" zavodunda istehsal olunmuş RD-33MK mühərrikləri ilə təchiz olunub. MiQ-35 təyyarəsinin ön şassisinin altında optik-elektron konteyner də var. MiQ-35 qırıcısı 3500 kilometrlik fəaliyyət radiusuna malikdir. Ən müasir silahlarla və texnika ilə təchiz edilmiş MiQ-35 təyyarəsi eyni anda 30-dək hədəfi "müşayiət" edə bilir, 10 hədəfi eyni anda vurur. Üstəlik, bu təyyarə çox yüksək intensivliyə malik münaqişə arealında özünü "rahat" hiss edir. Hazırlıqsız aerodromlardan da səmaya qalxa bilən qırıcının bütün idarəetmə sistemləri 4 ehtiyat variantına malik olduğundan, həddən artıq etibarlı və keyfiyyətlidir. Tam bir aviasiya kompleksi sayılan MiQ-35 dünyanın 50 ölkəsinin hərbi-hava qüvvvələrinə unifikasiya edilərək uyğunlaşdırılıb ki, bu da qırıcının satıcılıq və rəqabət qabiliyyətini xeyli artırıb. Təyyarə iki variantdadır: bir yerlik MiQ-35 və iki yerlik Miq-35D.

MİQ-35 yüngül qırıcısı ən son göyərtə avadanlığı və perspektiv silahlarla təchiz olunduğundan çox geniş spektrdə tapşırıqları yerinə yetirə bilir. Həmin tapşırıqlar arasında havada üstünlüyün əldə olunması; rəqibin 4-cü və 5-ci nəsil qırıcılarına qarşı effektiv müqavimət; mövcud hava hücumundan müdafiə sistemlərinin sıradan çıxarılması və məhv edilməsi; istənilən hava şəraitində düşmənin hava hücumundan müdafiə sistemlərinin fəaliyyət zonasına daxil olmadan yerüstü və sudakı hədəflərin uzaqdan məhv edilməsi; optik-elektron və radiotexniki vasitələrdən yararlanmaqla hava kəşfiyyatının aparılması; avia qruplaşmasının idarəolunması məqsədli hava məntəqəsi-qərargahı funksiyasının yerinə yetirilməsi və sair var. Qırıcı təyyarə mövcud "hava-hava" və "hava-yer" tipli raketlərlə yanaşı, düşmənin hava hücumundan müdafiə qüvvələrinin fəaliyyət zonasına daxil olmadan hədəfləri vurmağa imkan verən raketlərlə təchiz olunub. MiQ-35 təyyarəsinin uzunluğu 17,32 metr, hündürlüyü 4,73 metrdir. Yer yaxınlığında maksimal sürəti 1450 km/saat, səmada maksimal sürəti 2560 km/saatdır. Əlavə yanacaqdoldurma olmadan uçuş məsafəsi 3100 kilometrdir. Ən başlıcası isə, MiQ-35 yüngül qırıcısı ABŞ-ın "Lockheed Martin" korporasiyasının istehsalı olan F-35 qırıcısından effektiv, sürətli və ucuzdur. "MiQ" korporasiyası ən son model yüngül qırıcı təyyarəsini Azərbaycana satmağa hazırdır və bununla bağlı artıq danışıqların da getdiyi yuxarıda qeyd edilənlərdən aydın görünür.

Ekspertlər hesab edir ki, belə təyyarələrin alışı Dağlıq Qarabağ münaqişəsinin həlli hərbu müstəviyə keçəcəyi təqdirdə Azərbaycana əlavə mühüm hərbi üstünlüklər qazandıracaq. Proseslərin gedişi isə həmin təyyarələrin yaxın tezlikdə ordumuzun ixtiyarında olacağını deməyə əsas verir. Elə Ermənistanı narahat edən də məhz budur.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**